# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

14 | №123 (3095) 19 - 21 Dekabr / 2020-ci il

www.hurriyyet.org; / hurriyyet@mail.ru



# QARABAĞDAN ŞƏHİD GƏLİB...

## Qazimizin ürəksizladan şeiri...

İşğaldan qurtulan Qarabağda xidmətini QAZİ kimi sürdürən Murad Rəfail oğlu bu gün yeni şerini göndərib. QAZİ oğlu Qazi Murad şəhid qardaşlarına yox, onların ərsiz qalan nişanlılarının, adaxlılarının ölmüş, şəhid olmuş ümidlərinə yas saxlayır. Qazi şerini oxuyanların diqqətinə çatdırıb, igid Murada Vətənə xidmətdə və yaradıcılıqda uğurlar arzulayırıq.

### Qarabağdan şəhid gəlib

Şəhid gətirdilər
Yenə məhəlləmizə.
Bələdiyyədən yenə
Gül verib əlimizə
"Şəhidi qarşılayın"
Deyirdi, deyirdi orta yaşlı
Tər təmiz əyin başlı
Qəsəbənin soveti .

Birdə "Vətən" Qəzeti
Gəlmişdi şəkil çəkən,
Gəlmişdi zəhlə tökən
Gic-gic suallar verən
Müxbir, köhnə işverən.

Mən də məhəlləmizin
Dayanmışam tinində.
Üst-başım it günündə
Baxıram bir eyvana
Nə ata var, nə ana.
Orda duran şəhidin
Nişanlısı Ağbəniz
Göz yaşı ölü dəniz.

Mən baxmıram şəhidin
Qohum əqrəbasına.
Gəlirdilər igidin
Toy əvəzi yasına.
Mən baxıram nişansız
Nişanlı baxışına.
Mən baxıram zamansız
Ağbənizin gözündən
Axan göz yağışına.

Ay Ağbəniz, mən sənə
Baxdıqca ağlayıram
Hamı ŞƏHİD balaya
Mən sənin ölmüş
Ümidlərinə yas saxlıyıram.

Siqnal səsləri ilə
Gətirilirdi Şəhid.
O qoçaq , o Mərd ,o İgid
O Qəhrəman Gəlirdi
Bir maşında bəy kimi.
Sənsə ötən günləri
Zikr edirdin dilində.
Qırılan təsbey kimi
Bir-bir qopub düşürdü
Xatirələr əlində .

Mən baxırdım, Ağbəniz,
Sənin qara gözünə.
Oxudum gözlərindən
Deyirdin öz-özünə:
"Mən axı Şəhid yolun,
Şəhid maşınlarının
Siqnalın gözləmirdim!
Gözləyirdim yolunu
Məni bərk-bərk qucaglayan
Əllərini , qolunu ...
Boyunu-buxununu
Gözləyirdim ər kimi!
Amma ki sən ər oldun
Vətənə , əsgər kimi!

Mən belə gözləyirdim
Gözləyirdim mən sənin ..
O şirin nəfəsini
Gəlinlik maşınından
Gələn Siqnal səsini..."

**Murad İsmayılzadə**
*Cəbrayıl R. Daşkəsən Kəndi*